BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2015*

**UOT 94 (479.24)**

# BDU-nun TARİX FAKÜLTƏSİNİN TARİXİNDƏN (1919-1950-ci illər)

**S.A.İSMAYILOVA**
***Bakı Dövlət Universiteti***
***sevdaismayilova @rambler.ru***

*Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza ən böyük töhfələrindən biri olan Bakı Dövlət Universitetinin tarix fakültəsinin yaranmasının ilk illərindən bəhs edilir, fakültənin 1950-ci illərdəki fəaliyyətinin bəzi öyrənilməmiş səhifələri açılır.*

*Müharibədən sonrakı stalinizmin elm və təhsilə vurduğu zərbənin Azərbaycan tarix elmində mənfi təzahürləri şərh edilir.*

**Açar sözlər:** Bakı Dövlət Universiteti, tarix-filologiya fakültəsi, müharibədən sonrakı stalinizm, müridizm, Azərbaycan tarixi

1919-cu il sentyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti tərəfindən «Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun»a görə Bakıda dörd fakültədən ibarət Dövlət Universitetinin yaradılması nəzərdə tutulurdu. Universitetin yalnız iki fakültəsi: dörd kursdan ibarət tibb fakültəsi və bir (birinci) kursdan ibarət tarix-filologiya fakültəsi üçün müvəqqəti, bir il müddətinə (1919-cu il sentyabrın 1-dən etibarən) ştat və smeta müəyyən edildi (9, 85-86). Universitetin təşkilat komitəsi V.İ.Razumovskini universitetin rektoru, N.A.Dubrovskini tarix-filologiya fakültəsinin, İ.İ.Şirokoqorovu tibb fakültəsinin dekanı seçdi (10, 77-79).

1921-ci ildə tarix-filologiya fakültəsinin professor-müəllim heyəti sadalanan şəxslərdən ibarət olmuşdur: Y.İ.Baybakov, A.D.Qulyayev, N.A.Dubrovski, P.D.Jüze, V.İ.İvanov, L.A.İşkov, L.Q.Loaptinski, A.O.Makolevski, Y.A.Paxomov, N.A.Smirnov, A.B.Selixanoviç, V.V.Sipovski, Y.K.Akimov, V.B.Tomaşevski, M.V.Belyayev, İ.İ.Babuşkin, S.Q.Barxudarov, T.L.Lopatinski, A.V.Lukyanova, V.K.Lişenko, M.P.Mirzayev, P.O.Pilasevki, N.V.Tovışevskaya, F.F.Xomaev, M.A.Şaxtaxtinski, T.V.Şaxtaxtinski, V.P.Yablonko, F.V.Blaqovidov (3, vv.4-4 arx). Rektor V.İ.Razumovski və tarix-filologiya fakültəsinin dekanı N.A.Dubrovski özləri ezamiyyətə gedərək adları çəkilən

alimlərdən bəzilərini Rusiya universitetlərindən Bakı Dövlət Universitetinə dərs demək üçün dəvət etmişdilər (2, vv.4-11).

Bakı Dövlət Universitetinin yaradılması Azərbaycan xalqının mədəni həyatında mühüm hadisə oldu. Arxiv sənədlərindən görünür ki, tariximizə qara hərflərlə yazılmış 1920-ci il aprelin 28-i günü də tarix-filologiya fakültəsi tədris prosesini davam etdirmiş, növbəti tədris ilinə dərslərin bölgüsünü aparmışdır (1, vv.1-5).

1920-ci il oktyabrın 16-da fakültənin üç şöbəsində (tarix, dil və Şərq şöbələrində) mühazirələr və praktik məşğələlər başlandı. I və II kurslarda 680 tələbə məşğələlərə başladı. Fakültədə 12 professor, elmi cəmiyyətin bir üzvü, 2 dosent, 6 daimi və müvəqqəti müəllim işləyirdi. Fakültənin ilk dekanı (1923-cü ilədək) professor N.A.Dubrovski idi (9, 123).

1921/22-ci dərs ilində fakültəni bir nəfər bitirmişdi. Pyotr Xristianoviç Tumbil və bu diplom birinci dərəcəli diplom idi (4, v.3). (Diplomun surətini əlavə edirik – S.İ.).



ДИПЛОМ

Пред'явитель сего, **Петр Христианович ТУМБИЛЬ**, в бытность свою студентом Историко-Филологического Факультета Государственного Варшавского Университета в 1902-1903 годах и студентом Историко-Филологического Факультета Государственного Бакинского Университета в 1920-1921 годах, по словесному отделению, выдержал следующие испытания:

| | |
|---|---|
| Государственное право | весьма удовлетворительно |
| Логика | весьма удовлетворительно |
| Психология | весьма удовлетворительно |
| Латинские авторы | весьма удовлетворительно |
| Введение в языкознание | весьма удовлетворительно |
| Сравнительная грамматика индоевропейских языков | весьма удовлетворительно |
| Русский язык | весьма удовлетворительно |
| История греческой литературы | весьма удовлетворительно |
| История римской литературы | весьма удовлетворительно |
| История всеобщей литературы | весьма удовлетворительно |
| История русской литературы | весьма удовлетворительно |
| Греческая трагедия | весьма удовлетворительно |
| Специальный курс о Данте | весьма удовлетворительно |
| Греческие авторы | весьма удовлетворительно |
| Санскрит | весьма удовлетворительно |
| Польский язык | весьма удовлетворительно |
| Немецкий язык | весьма удовлетворительно |
| Французский язык | весьма удовлетворительно |
| Итальянский язык | весьма удовлетворительно |
| Всеобщая история | весьма удовлетворительно |
| Русская история | весьма удовлетворительно |
| История новой философии | весьма удовлетворительно |
| История философии права | весьма удовлетворительно |
| История римского права | весьма удовлетворительно |
| История русского права | весьма удовлетворительно. |

Кроме того участвовал в практических занятиях по изучению сочинений Горация и Эсхила, а также по истории итальянской литературы. Зачетное сочинение на тему „De Alcaei et Sapphus carminum indole, elocutione, numeris, figuris" признано весьма удовлетворительным.

Посему, на основании ст. 29 Устава Государственного Бакинского Университета Петр Христианович Тумбиль **удостоен Историко-Филологическим Факультетом дипломом первой степени**, в удостоверение сего и дан сей диплом Петру Христиановичу Тумбиль за надлежащими подписями и с приложением печати Государственного Бакинского Университета.

Город Баку, 5 Января 1922 года.

№ 1

(М П)

*Декан Историко-Филологического Факультета, Профессор* Шихов

*Секретарь Историко-Филологического Факультета, Профессор* Маковельский

*Делопроизводитель* Щелкова.

Arxiv sənədlərindən görünür ki, X.Tumbil elmi tədqiqatlarını davam etdirmiş, 1938-ci ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almış, elə Bakı Dövlət Universitetində klassik filologiya kafedrasının professoru və kafedra müdiri vəzifələrinədək yüksəlmişdir (6, v.27).

1923-cü il aprelin 19-da tarix-filologiya fakültəsi ictimai elmlər fakültəsinə çevrildi. Onun tarix, dil və iqtisadiyyat şöbələri var idi (9, 124). 1930-cu ildə universitet müstəqil institutlara ayrıldı. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1934-cü il 25 may tarixli qərarı ilə yenidən açıldı. ADU-da Tarix

fakültəsi yenidən fəaliyyətə başladı (5, v.1-5).

1940-41-ci dərs ilində tarix fakültəsində 5 kafedra fəaliyyət göstərirdi, professor-müəllim heyəti 16 nəfərdən ibarət idi, 10 aspirant təhsil alırdı.

1941-ci ilin fevralında Azərbaycan tarixi kafedrası təşkil edildi. Kafedra müdiri vəzifəsinə Z.İ.İbrahimov təyin edildi. P.K.Juzeni, M.M.İrəvanskini, M.Ə.Qazıyevi və Y.A.Tokarjevskini kafedra üzvləri təsdiq etdilər (9, 248).

Müharibədən sonrakı dinc quruculuq illərinin ilk dövründə fakültədə 4 kafedra var idi. Azərbaycan tarixi; SSRİ tarixi; Qədim dünya və orta əsrlər tarixi; Yeni müstəmləkə və asılı ölkələrin tarixi. Həmin illərdə fakültədə İsmayıl Abbas oğlu Hüseynov, Əlisöhbət Sumbat oğlu Sumbatzadə, Aleksandr Osipoviç Makovelski, Mehbalı Məmməd oğlu İbrahimov, Ədhəm Mürsəl oğlu Şahmalıyev, Mehdi Məmməd oğlu İrəvanski, Məmməd Səlim oğlu Səlimov, Əkbər Zeynal oğlu Dadaşlı, Məmməd Şıxlı, Yevgeni Aleksandroviç Tokarjevski və başqa görkəmli alimlər fəaliyyət göstərirdilər.

Bu dövrdə fakültənin elmi tərkibində əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdi. 1946-cı ildə İ.A.Hüseynov, 1948-ci ildə isə Z.İ.İbrahimov doktorluq dissertasiyaları müdafiə etmişlər. Onlar tarix elmləri doktoru elmi dərəcəsini alan ilk azərbaycanlı alimlər idilər. Sonrakı illərdə M.M.İrəvanski (1958), Ə.M.Şahmalıyev (1960) də yüksək elmi dərəcəyə layiq görüldülər (14, 387).

II Dünya savaşından sonrakı illərdə dünyanın geosiyasi mənzərəsində çox ciddi dəyişikliklər baş verdi. Milli müstəmləkə sistemi dağıldı, müstəqil dövlətlər yarandı, milli-azadlıq hərəkatı, dünyanın inkişafı özünün yeni mərhələsinə daxil oldu.

II Dünya müharibəsindən sonrakı dövr Azərbaycanın ictimai-siyasi həyatında çox ziddiyyətli və mürəkkəb dövr olaraq qalırdı. 1946-1950-ci illərin əvvəllərində respublikada gedən siyasi proseslər, bütün hallarda Mircəfər Bağırovun nəzarəti altında olmuş və «qurama» işlər üstündə 30-cu illərin repressiyaları bu dövrdə də davam etdirilmiş, yüzlərlə günahsız insan, ilk növbədə, görkəmli ictimai-siyasi və elm, təhsil xadimləri həbs edilib cəzalandırılmışdı (17, 370).

«Hakim millət» və «hakim ideologiya» başlıca şüara çevrilmişdi. Çoxmillətli, ittifaq respublikalarından ibarət olan bir ölkədə milli şüurun inkişafının qaçılmaz olması fikrini Stalin dərk edirdi. Belə ki, Almaniya üzərində qələbədə rus xalqının xüsusi rolu məsələsi aparıcı ideologiyaya çevrilir. Stalin «böyük qardaş», Rusiya dövlətçiliyi fikrinin ictimai şüura nüfuzuna çalışırdı. Rusiya işğallarının mütərəqqi əhəmiyyəti fikri möhkəmlənirdi. «Birləşmə»nin mütərəqqi iqtisadi, siyasi və mədəni əhəmiyyətli olması tezisi möhkəmləndirilirdi. Axı, işğalın hər hansı bir sahədə əhəmiyyətindən danışmaq mümkün deyil!

Azərbaycan KP MK-nın I katibi M.C.Bağırov da tezisdən tez nəticə çıxardı. 1946-cı ildə yazdığı bir məqalədə rus mədəniyyətinin Azərbaycan mədəniyyətinin bütün sahələrinə mütərəqqi təsirindən bəhs edirdi. Belə bir şəraitdə Azərbaycanın Rusiyanın tərkibinə zorla daxil edilməsi fikri sovet beynəlmiləlçiliyi ideyasına xəyanət kimi qiymətləndirilirdi (18, 248). Akademik Heydər

Hüseynov 1949-cu ildə nəşr olunmuş «Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən» kitabı ilə də məhz bu baş verdi. H.Hüseynov kitabında Mirzə Kazım bəyin «Müridizm və Şamil» əsərini Şamilin başçılığı altnıda dağlıların xalq-azadlıq hərəkatına həsr edilmiş tədqiqat adlandırır. Mirzə Kazımbəyin Şamili xalqın nümayəndəsi, dağlıların cəsur rəhbəri, ruhani və dünyəvi hakimiyyəti öz əllərində cəmləşdirən bir imam kimi səciyyəlnədirdiyini göstərir. Heydər Hüseynov müridizmin Azərbaycanda da mövcud olduğunu, sosial hərəkat kimi çarizmin müstəmləkəçilik zülmü əleyhinə çevrildiyini göstərirdi (13, 149-153).

1950-ci ilin 3 iyulunda Mir Cəfər Bağırovun ÜİK (b) P-nin katibi Q.Malenkova ünvanlandığı məktubda indiyə qədər tarixi ədəbiyyatda Qafqaz müridizmi və Şamil hərəkatının düzgün işıqlandırılmadığı vurğulanır. M.C.Bağırovun Q.Malenkova göndərdiyi məqalə «Bolşevik» jurnalında çap edilir. Məqalədə Şeyx Şamil Türkiyənin və onun arxasında dayanmış İngiltərənin casusu adlandırılır. Əsas tezis də ondan ibarət idi ki, Rusiyaya birləşdirilmə bütün Qafqaz xalqları üçün böyük xoşbəxtlik olub. Bu məsələ ilə bağlı 1950-ci il 14-15 iyulda ziyalıların ümumbakı yığıncağında görkəmli alimlər, SSRİ EA-nın müxbir üzvü A.Makovelski, professorlar Ə.Sumbatzadə, M.İrəvanski, Y.Tokarjevski, Ə.Dəmirçizadə və başqaları kitabın mürtəce məğzini başa düşməyib ona müsbət rəy verməkdə günahlandırıldılar (18, 253-256). Beləliklə, H.Hüseynov, bütün vəzifələrdən azad edilmiş, ona verilən Stalin mükafatı geri alınmış, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlüyündən çıxarılmış, özü isə nəzarətə götürülmüşdü. Bunlara dözə bilməyən filosof 1950-ci ildə intihar etmişdi.

«Hakim millət» tezisi, «birləşdirmə» konsepsiyası özünü tarix elmində daha bariz göstərməyə başladı.

Azərbaycan Respublikası Dövlət Arxivində bu məsələ ilə bağlı bir sənəd diqqətimizi çəkdi. Bu Tarix fakültəsinin dekanı M.Əfəndiyev tərəfindən 1958-ci il 26 fevral tarixində tərtib edilmiş bir arayışdır. Arayışda «Azərbaycan tarixi» fənninin mühüm bir fənn kimi 1938-ci ildən Azərbaycan Dövlət Universitetində tədris edildiyi, 1941-ci il yanvarın 28-dən universitetdə «Azərbaycan tarixi» kafedrasının yaradıldığı və 1942-43-cü tədris ilinin əvvəlindən «Azərbaycan tarixi» fənninin bütün fakültələrdə tədris edildiyi bildirilir. Göstərilir ki, 1949-cu ildə bağlanma ərəfəsində kafedra 8 ştata malik idi. Mövcudluğu dövründə kafedra Azərbaycan tarixi, əsasən sovet cəmiyyəti tarixi üzrə qiymətli əsərlər yaratmışdır. 1950-ci ildə Ali Təhsil Nazirliyi tərəfindən Azərbaycan tarixi kafedrası müridizm və Şamil hərəkatı kimi ziyanlı kampaniya ilə əlaqədar qapadılmışdır.

Daha sonra Azərbaycan Dövlət Universitetinin bütün fakültələrində Azərbaycan tarixinin tədrisi, Azərbaycan tarixindən elmi-tədqiqat işlərinin genişləndirilməsi zərurəti ilə bağlı kafedranın bərpasının vacib sayıldığı göstərilir (8, vv.71-72).

ADU-nun 1950/51-ci tədris ili üçün professor-müəllim heyəti siyahısın-

dan görünür ki, «Azərbaycan tarixi» ixtisası üzrə professor-müəllim heyəti artıq «SSRİ tarixi» kafedrası tərkibinə daxil edilib:

1. Şərifli Məmmədəli Xəlil o. – dos., elm. nam.
2. İbrahimov Zülfəli İmam o. – prof., elm. dok.
3. Şükürzadə Ənvər Bəylər o. – dos., elm. nam.
4. Quliyev Əliövsət Nəcəf o. – fakültə dekanı, dos., elm. nam.
5. Striqunov İosif Vasilyeviç – müəllim.
6. Əbdürrəhmanov Asim Ahməd o. – b/ müəl. (7, vv.28-29).

Tarix fənlərinin tədrisini yaxşılaşdırmaq sahəsində AK(b)P MK bürosunun respublikada tarix elminin vəziyyətinə dair 1950-ci ildə qəbul etdiyi qərar, eləcə də tarixçilərin 1950-ci ilin oktyabrında keçirilmiş və proqram xarakterli qərarlar qəbul etmiş respublika müşavirəsinin qərarlarından sonra tarixə dair elmi-tədqiqat işlərinin mövzusuna yenidən baxılmış və universitetdə tarix fənlərinin, ilk növbədə Azərbaycan tarixinin tədrisini yaxşılaşdırmaq sahəsində tədbirlər müəyyən edilmişdi. Tarix fakültəsinin dekanı, dosent Ə.N.Quliyevin məruzəsi əsasında bu məsələ 1950-ci il dekabrın 21-də Elmi Şuranın iclasında hərtərəfli müzakirə edilmişdi.

İ.Stalinin ölümündən sonra Sov.İKP MK-nın iyul plenumunda L.Beriyanın cinayətkar fəaliyyəti ilə bağlı M.C.Bağırovun da adı hallandırılmağa başlandı. O, nəinki respublikaya rəhbərlikdən, eləcə də Azərbaycandan uzaqlaşdırıldı, 29 mart 1954-cü ildə həbs edildi. 2 mart 1956-cı ildə güllələnməyə məhkum edildi (16,7, 117).

1955-ci il yanvar ayının 13-də Azərbaycan KP MK-nın bürosunda «Həbsdən azad olan, sürgündən qayıdan və bəraət alan vətəndaşların ərizələrinə baxılması üzrə komissiya» yaradılması haqqında qərar qəbul edildi. Azərbaycan KP MK katibi M.İsgəndərovun başçılıq etdiyi bu komissiyaya Ali Sovetin rəyasət Heyətinin sədri M.İbrahimov, Nazirlər Soveti sədrinin müavini M.Rəhimov, respublika prokuroru A.Babayev, Dövlət təhlükəsizliyi komitəsinin sədri A.Quskov, ədliyyə naziri İ.Gülməmmədov, Bakı şəhər İcraiyyə Komitəsinin sədri A.Əbdülrəhimov, Daxili İşlər nazirinin müavini Y.Cavadov daxil edilmişdilər. Azərbaycan KP MK-nın bürosu 1955-ci il oktyabrın 21-də Heydər Hüseynovun elmi əsərlərindən istifadənin mümkünlüyü haqqında qərar qəbul etdi. Azərbaycan SSR EA-nın rəyasət Heyətinə tapşırıldı ki, H.Hüseynovun «XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən» adlı əsərinin yenidən nəşrinin mümkünlüyü məsələsinə baxsınlar və bu məsələni həll etsinlər (12,33-34).

Azərbaycan Kommunist Partiyasının XXI qurultayı 1956-cı ilin yanvar ayının 25-də işə başladı. Qurultayda Azərbaycan rəhbərliyi 50-ci illərin ortalarında SSRİ-də gedən dəyişikliklərə ehtiyatla yanaşmış, bəzi məsələlərdə gözləmə mövqeyi tutmuşdu. Azərbaycan tarixi, mədəniyyəti və ictimai fikri ilə bağlı bəzi məsələlərin müzakirəsinin qapalı aparılması, milli məsələlərə münasibətdə qurultayın stenoqramlarında əks olunmuş hesabat məruzəsi ilə mətbuatda dərc olunan mətn arasında fərqlərin olması rəhbərliyin mövqeyinin möhkəm

olmadığını göstərir (12, 70).

1956-cı ildə Sov.İKP XX qurultayı «Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq haqqında» qərar qəbul etdi. Stalinin şəxsiyyətinə pərəstiş tənqid olundu, onun təzahürləri göstərildi. Stalin totalitarizminin buzu 50-ci illərdə «Xruşşov baharının» gəlişi ilə tədricən əriməyə başladı. Elmin, ədəbiyyatın, mədəniyyətin inkişafında azərbaycançılıq aparıcı istiqamətə çevrilməyə başladı. Bütün bunlar milli və mənəvi dəyərlərinin qaldırılmasına, tarixi keçmişin daha dərindən öyrənilməsinə əlverişli şərait yaratdı.

«Azərbaycan tarixi» kafedrasının da qapadılması və 1958-ci ildə bərpasının səbəbi keçmiş SSRİ-də gedən siyasi proseslərlə bağlı olmuşdu. Beləliklə, «Azərbaycan tarixi» kafedrası SSRİ Təhsil Nazirliyinin 20 mart 1958-ci il tarixli, 307 saylı əmri ilə bərpa edildi (11, v.28).

Hazırda Bakı Dövlət Universitetinin humanitar fakültələr və təbiət fakültələri üzrə iki Azərbaycan tarixi kafedrasında otuz nəfər professor – müəllim fəaliyyət göstərir. Tarix fakültəsində yüz bir nəfər professor-müəllim çalışır. Fakültədə ali təhsilin bakalavr pilləsi üzrə 1.128 tələbə, 127 magistrant təhsilini davam etdirir (15, 397).

**ƏDƏBİYYAT**


1. ARDA, f. 1640, siy.1, iş 5, vv.1-5.
2. ARDA, f. 1640, siy.1, iş 6, vv.4-11.
3. ARDA, f. 1640, siy. 1, iş 7, vv.4-4 arx.
4. ARDA, f. 1640, siy.1, iş 18, v.3
5. ARDA, f. 1640, siy.2, iş 2, vv.1-5.
6. ARDA, f. 1640, siy.4, iş 336, v. 27.
7. ARDA, f. 1640, siy.4, iş 395, vv.28-29.
8. ARDA, f. 1640, siy.4, iş 771, vv.71-72.
9. Atakişiyev A. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin tarixi. İki hissədə, I hissə. Bakı: BDU, 1991, 528 s.
10. Azərbaycan arxivi. 1971, № 1 (9), s.71-79.
11. BDU-nun arxivi: f. 1, siy. 1, bağlama 392, s.28.
12. Həsənli C. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı: Adiloğlu, 2008, 544 s.
13. Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Şərq-Qərb, 2007, 400 s.
14. Məhərrəmov A. Bakı Dövlət Universiteti. Bakı: «Bakı Universiteti nəşriyyatı», 2009, 696 s.
15. Məhərrəmov A. Bakı Dövlət Universiteti – 95. Bakı: «Bakı Universiteti nəşriyyatı», 2014, 576 s.
16. Mir Cəfər Bağırovun məhkəməsi/ Tərtib edəni N.Rüstəmli, T.Alıyev. Bakı: Yazıçı, 1993, 120 s.
17. Zeynalov İ., Səfərova X. Şimali Azərbaycan İkinci Dünya müharibəsindən sonrakı dövrdə (1946-1960-cı illərdə) // Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XX əsrin əvvəli). Bakı: BDU, 2010, 544 s.
18. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. 1945-1953. Баку: Адилоглу, 2003, 344 с.

**ИЗ ИСТОРИИ ИСТОРИЧЕСКОГО ФАКУЛЬТЕТА БГУ (1919-1950-е годы)**

**С.А.ИСМАИЛОВА**

**РЕЗЮМЕ**

В статье рассматривается первые годы исторического факультета БГУ, который был одним из наилучших даров Азербайджанской Демократической Республики для нашего народа. Раскрываются некоторые неизученные страницы факультета в 1950-х годах.

Раскрываются отрицательные факторы послевоенного сталинизма в науке и просвещении и в особенности исторической науке Азербайджана.

**Ключевые слова:** Бакинский Государственный Университет, историко-филологический факультет, послевоенный сталинизм, мюридизм, история Азербайджана

**ABOUT THE HISTORY OF THE DEPARTMENT OF HISTORY OF BAKU STATE UNIVERSITY (1919-1950)**

**S.A.ISMAYILOVA**

**SUMMARY**

The present article studies the first years of the establishment of the department of History of Baku State University, which was a contribution of Azerbaijan Democratic Republic to our people. There are discovered some unstudied pages of this faculty in 1950 years of the XX century. The negative reflections of after-war Stalinism in science and enlightenment are disclosed.

**Key words:** Baku State University, faculty of History-Philology, after-war Stalinism, muridism, history of Azerbaijan